*Arzu Rəhim qızı SÜLEYMANOVA*
*iqtisad üzrə fəlsəfə doktoru*
*Azərbaycan Kooperasiya Universiteti*
*E-mail: arzu-aliyeva-1979@mail.ru*

# AZƏRBAYCANDA AQRAR SAHİBKARLIĞIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ SİSTEMİ VƏ SAHİBKARLARA MALİYYƏ DƏSTƏYİ

**_Xülasə_**

İstehsalın intensivləşdirilməsi əsasında qiymətlərin səviyyəsinin optimallaşdırılmasına nail olmaq mümkündür. Bu da əmtəə istehsalçılarının təsərrüfat-maliyyə fəaliyyətinin müvəffəqiyyətlə reallaşdırılmasında əsas amillərdəndir. Bundan başqa, aqrar bazar infrastrukturlarının inkişaf etdirilməsi kənd təsərrüfatı məhsullarının satışının təşkilində mövcud olan maneələri aradan qaldırır və aqrar əmtəə istehsalçılarının öz məhsullarını səmərəli şəkildə reallaşdırmasına şərait yaradır.

***Açar sözlər: intensiv inkişaf, aqrar sahibkarlıq, kənd təsərrüfatı, dövlət tənzimlənməsi, maliyyə sistemi.***

***

Aqrar ərzaq kompleksinin iqtisadi mexanizminin strukturunda bazar münasibətləri şəraitində qiymət münasibətlərinin formalaşması prinsipləri əhəmiyyətli rol oynayır. Respublikamızda hal-hazırda aqrar siyasətin qarşısında ən mühüm başlıca vəzifələrdən biri kənd təsərrüfatı ilə iqtisadiyyatın digər sahələri arasında paritet iqtisadi münasibətlərə nail olmaqdır. Bu zaman kənd təsərrüfatı ilə sənaye məhsullarının qiymətləri arasında paritet nisbətlərin formalaşdırılması əsas götürülməlidir.

Apardığımız tədqiqatlar göstərir ki, aqrar əmtəə istehsalçılarının təsərrüfat fəaliyyətinə dövlət tərəfindən həyata keçirilən birbaşa müdaxilə bilavasitə qiymətlərin formalaşması prosesinin tənzimlənməsi ilə reallaşır. Qiymətlərin səviyyəsinə inzibati yolla müdaxilə etmək, xüsusilə inflyasiyanın səviyyəsinin aşağı salınması və onun aradan qaldırılması zamanı həyata keçirilir.

Qiymətlərin səviyyəsinin sabitləşdirilməsi mənfəət və kənd təsərrüfatı əmtəə istehsalçılarının rentabellik səviyyəsi hədlərində fəaliyyət göstərməsinə imkan yaradır. Dövlət tərəfindən qiymət münasibətlərinin tənzimlənməsinə istiqamətlənmiş inzibati tədbirlərə inhisarçı subyektlərin qiymətlərinin bəyannaməsi və qiymət hədlərinin müəyyənləşdirilməsi məqsədilə qiymətlərin aşağı və yüksək hədlərindən istifadə edilməsi aid edilir.

Aqrar sahibkarlığın rəqabətədavamlılığının artırılması nəticədə aqrar sahənin inkişafını təmin edir. Bu da iqtisadi cəhətdən dayanıqlı aqrar sənaye kompleksinin formalaşdırılması deməkdir. Bazarda baş verən hər hansı bir tələb-təklif üzrə dəyişikliklər nəticəsində kənd təsərrüfatı əmtəə istehsalçılarının pul gəlirlərinin dəyişməsini şərtləndirir. Bu amillərə də ilk növbədə təbii iqlim şəraitinin aqrar sahibkarlıq fəaliyyəti üçün əlverişsiz keçməsini aid etmək olar. Belə ki, təbii iqlim şəraitinin əlverişsizliyi və iqlim dəyişiklikləri son nəticədə bu və ya digər məhsulların istehsalında və istehsalın məhsuldarlıq səviyyəsində dəyişmələri özündə ehtiva edir[3].

Ümumiyyətlə, qiymətin formalaşması və əhəmiyyəti ondadır ki, o ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Bilirik ki, yüksək qiymətlər məhsulların bahalılığını və onun alınmasına daha çox pul vəsaitinin xərclənməsinin tələb olunmasını əks etdirir. Dünya bazarına daha çox kənd təsərrüfatı və ərzaq məhsulları ixrac edən inkişaf etmiş ölkələr qiymətlərin səviyyəsinin endirilməsi ilə bağlı kifayət qədər geniş daxili imkanlara malikdirlər. Məsələn, Kanadada, Avstraliyada və Yeni Zelandiyada heyvandarlıq məhsullarının istehsalçıları öz məhsullarını nisbətən ucuz qiymətə təklif etmək imkanına malik olurlar ki, bu da nəticə etibarilə onların inkişaf etməkdə olan ölkələrin bazarlarına daha çox yiyələnməsinə gətirib çıxarır. Bu ölkələrdə heyvandarlıq məhsullarının istehsalı üçün kifayət qədər geniş istehsal potensialı və əlverişli təbii iqlim şəraiti vardır. Ərazinin həddindən artıq geniş olması, həm də kənd təsərrüfatı məhsulları, o cümlədən heyvandarlıq məhsullarının istehsalı üçün tələb olunan yem kütləsinin ucuz başa gəlməsi, heyvanların məhsuldarlığının yüksək səviyyəsi nəticədə onların daha çox məhsul əldə etmələrinə və aşağı xərc müqabilində geniş təkrar istehsalı başa çatdırmalarına əlverişli imkanlar yaradır. Bu zaman onlar öz məhsullarını bu və ya digər ölkələrin daxili bazarlarına təklif etməklə nəticədə, digər ölkədən öz ölkələrinə maliyyə vəsaitinin axmasına gətirib çıxarırlar.

Qiymətin bütün funksiyaları iqtisadiyyata nəinki aqrar sahibkarlığın fərdi ailə və ev təsərrüfatları miqyasında, eyni zamanda makroiqtisadi miqyasda təsir göstərir. Nəticədə aqrar sahibkarlıqda emal müəssisələri ilə, xidmət strukturları ilə və istehlakçılarla qarşılıqlı iqtisadi münasibətlərdə adı çəkilən qiymətlərin müxtəlif növlərindən istifadə edilir. Bu prosesə dövlət tərəfindən vaxtında müdaxilələrin həyata keçirilməsi qiymətlərin optimallaşdırılması prosesində onların aşağı salınması məqsədilə istehsalda olan daxili ehtiyat mənbələrindən istifadə edilməsinə səbəb olur.

Bazar iqtisadiyyatı şəraitində inkişaf etmiş ölkələrdə dövlət istehsal proseslərinin nəticələrinə əhəmiyyətli dərəcədə təsir göstərmək məqsədi ilə qiymətin stimullaşdırıcı funksiyalarından istifadə edir. Aqrar sahibkarlıq fəaliyyətində qiymətin stimullaşdırıcı funksiyaları kənd təsərrüfatı əmtəə istehsalçılarının təsərrüfat-maliyyə fəaliyyətinə də əhəmiyyətli dərəcədə təsir göstərir. Bazar iqtisadiyyatı şəraitində qiymətlər ilk növbədə məhsulların keyfiyyətinin yüksəldilməsinə imkan verir və bütövlükdə məhsul istehsalçılarının istehsalın son nəticələrinə görə olan marağının yüksəldilməsinə təsir göstərir, imkanlarını məhdudlaşdır və məhsul istehsalında intensivləşmə tədbirlərinin həyata keçirilməsinə əks təsir göstərir. Belə ki, aqrar sahibkarlıq fəaliyyətində bitkiçilikdə istehsalın intensivləşdirilməsi ilk növbədə əkin sahəsinin artırılması və növbəti əkin sisteminin tətbiq edilməsi ilə sıx bağlıdır. Məhz belə bir şəraitdə aqrar sahibkarların sərəncamında olan torpaq sahəsi məhdud olan əmtəə istehsalçıları intensivləşdirmə üsulundan istifadə etməkdə çətinlik çəkirlər. Aqrar sahibkarlıqda istehsalın kooperasiyasına geniş yer verilməli və kooperasiya münasibətlərinin təkmilləşdirilməsi və kənd təsərrüfatı əmtəə istehsalçılarının könüllü birliklərinin formalaşdırılması əsasında istehsalın intensivləşdirilməsi həyata keçirilməlidir. Aqrar sahibkarlıq fəaliyyətində qiymət amilindən istifadəni zəruri edən amillər kimi əməkhaqqının və gəlirlərin səviyyəsi əmək resurslarının strukturunu təşkil edir.

Qiymət səviyyəsinin müəyyənləşdirilməsindən asılı olaraq iqtisadi və sosial inkişafda iki istiqamət vardır. Bunlardan birincisi, qiymətin çevik və stimullaşdırıcı təsirlərin aktivləşdirilməsi hesabına iqtisadiyyatın bütün sahələrində iqtisadi artım tempinə nail olunması ilə şərtlənir. İkinci

meyil isə qiymət səviyyəsinin düzgün müəyyənləşdirilməməsi nəticəsində onun iqtisadi və sosial inkişafa tormozlayıcı təsir göstərməsi ilə bağlıdır. Odur ki, ümumi iqtisadiyyatda iqtisadi canlanma və artım tempinə nail olmaq məqsədini güdən dövlətlər ilk növbədə qiymət siyasətinin düzgün həyata keçirilməsinə və onun ölkənin strateji maraqlarına xidmət etməsinə səy göstərirdilər.

İnfrastrukturun ikinci mühüm forması olan bazar infrastrukturları kənd təsərrüfatı məhsullarının reallaşdırılmasında önəmli rola malikdir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, xüsusilə bazar infrastrukturunun fəaliyyəti kənd təsərrüfatı əmtəə istehsalçılarının satış problemlərindən azad olunmasına əlverişli şərait yaradır. Bütün bunlar isə istehsalçının vaxt və maliyyə itkisinin qarşısının alınmasında əhəmiyyətli rol oynayır.

Məhsulun saxlanılması imkanlarının məhdudluğu, həmçinin məhsulların tez xarab olması kənd təsərrüfatı əmtəə istehsalçılarının istehsal etdikləri məhsulun satış məsələlərini sürətləndirməyi tələb edir. Nəzərə alsaq ki, kənd təsərrüfatı məhsullarının yığımının mövsüm müddəti başa çatdıqdan sonra aqrar bazarda qiymətlərin səviyyəsi yüksəlməyə doğru gedir və eyni zamanda yerli məhsul bazarının ehtiyaclarını qarşılamaq iqtidarında olmadığından idxal kanallarından istifadəni zərurətə çevirir.

Aqrar bazarda qiymətlərin səviyyəsinin sabitləşdirilməsində infrastrukturun mühüm tərkib hissəsi kimi topdansatış bazarları mühüm rola malikdir. Bilirik ki, topdansatış bazarları əslində istehsalçılar ilə pərakəndə ticarət qurumları arasında, demək olar ki, son vasitəçilik xidmətləri yerinə yetirirlər. Respublikamızda topdansatış bazarlarının regionlarda fəaliyyət göstərməməsi aqrar bazara tənzimləyici təsir imkanlarının məhdudlaşmasına səbəb olur[3].

Aqrar sahədə infirastruktur sisteminin inkişaf etdirilməsi kənd təsərrüfatı məhsullarının qiymətlərinin tənzimlənməsində korporativ vasitə hesab edilə bilər. Bu həm istehlakçıların sosial maraqlarının müdafiə edilməsində, digər tərəfdən isə kənd təsərrüfatı əmtəə istehsalçılarının normal rentabellik şərtləri çərçivəsində fəaliyyət göstərmələrinə əlverişli şərait yaradır. Aqrar-sənaye sistemində infrastruktur bölmələrinin təkmilləşdirilməsi ərzaq bazarında stabilliyin təmin edilməsinə əlverişli şərait yaratmaqla, eləcə də məhsul itkisinin qarşısının alınmasına və həm də məhsuldarlığın səviyyəsinin yüksəldilməsinə səbəb olur. İnfrastruktur sisteminin təkmilləşdirilməsi qiymətlərin səviyyəsinin sabitləşdirilməsinə şərait yaradır, kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqədə olan sahələrdə investisiya cəlbediciliyinin yüksəldilməsinə də xidmət edir.

Kənd təsərrüfatının davamlı inkişafı qiymət münasibətlərinin təkmilləşdirilməsindən asılıdır. Qiymət münasibətlərinin istehsalçılar və istehlakçılar üçün əlyetərli olması nəticədə cəmiyyətdə sosial sabitliyin qorunması ilə yanaşı, həm də stabil gəlirin təmin edilməsinə şərait yaradır. Bu, ərzaq təhlükəsizliyinin qorunub saxlanmasına və eləcə də xarici bazarlarda qiymətlərin istehsalçılar üçün məqsədyönlü olması onların məhsul istehsalının artırılmasına stimullarını gücləndirir [3].

Aqrar-sənaye sistemində sahibkarlıq fəaliyyətinin infrastruktur sahələrinin inkişaf etdirilməsi mülkiyyət mənsubiyyətindən asılı olmayaraq, əmtəə istehsalçıları arasında təsərrüfat əlaqələrinin təkmilləşdirilməsinə də əsaslı köməklik göstərə bilər. Bütün bunlar həm də kənd təsərrüfatı məhsulları istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsində əsas rol oynayır[2].

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında Fərman (10 sentyabr 2002)
2. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. Sahibkarlıq fəaliyyəti (sənədlər toplusu). Bakı 2003. səh.81
3. Alıyev İ.H.Aqrar sahənin inkişafının təkmilləşdirilməsi və regionlarda islahatların keyfiyyətcə səmərəli aparılması. Bakı 2004,110 s.

*Арзу Рагим кызы Сулейманова*
*доктор философии по экономике*
*Азербайджанский Университет Кооперации*

**Система государственного регулирования аграрного предпринимательства в Азербайджане и финансовая поддержка предпринимателей**

*Резюме*

Достичь оптимизации уровня цен можно на основе интенсификации производства. Это один из основных факторов успешного осуществления хозяйственной и финансовой деятельности товаропроизводителей. Кроме того, развитие инфраструктуры аграрного рынка устраняет существующие препятствия в организации сбыта сельскохозяйственной продукции и создает условия для эффективной реализации сельскохозяйственной продукции производителями.

***Ключевые слова: интенсивное развитие, аграрное предпринимательство, сельское хозяйство, государственное регулирование, финансовая система.***

*Arzu Rahim Suleymanova*
*Doctor of Philosophy in Economics*
*Azerbaijan Cooperation University*

**State regulation system of agrarian entrepreneurship in Azerbaijan and financial support to entrepreneurs**

*Summary*

It is possible to achieve optimization of the price level based on the intensification of production. This is one of the main factors in the successful implementation of economic and financial activities of commodity producers. In addition, the development of agricultural market infrastructures removes existing obstacles in the organization of the sale of agricultural products and creates conditions for the efficient realization of agricultural goods producers.

***Key words: intensive development, agrarian entrepreneurship, agriculture, state regulation, financial system.***